Qarabağda çərşənbə tonqalı "paradı": Yaddan çıxmaz Xocalı

Son illər yatsaq da yuxumuza girməyən hadisələr, olaylar yaşayırıq. Qarabağın şəhərlərinə, kəndlərinə yerlilərin dönməsi, davamlı köç prosesləri ürəyimizi dağa döndərir, bir daha bu təkrarsız sevincləri bizə yaşatdıqları üçün nur üzlü şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik, qazilərimizə, veteranlarımıza, can sağlığı, səadət və səbr arzulayırıq.

Onlar olmasaydı, indi yəqin ki, Şuşada poeziya gecəsi, Kəlbəcərdə, Laçında , Füzulidə, Ağdamda tikinti quruculuq işləri, Ağdərədə, Xocalıda, Xocavənddə, Hadrutda, Xankəndində təmir-bərpa işləri eyni zamanda "Ballıcada artıq 460 keçmiş köçkün yerləşib". "Həsənriz kəndində 33 ildən sonra ilk dəfə bayram tonqalı" və sair yurd yerlərimizdəki bu təkrarsız xöşbəxtlik gətirən kəlmələri, cümlələri eşitməzdik.

Hazırda yaşadığımız bu xoşbəxt günlərin müəllifi cənab İlham Əliyevin dəmir iradəsi sayəsində xalqımıza qarşı bir çox cinayətlərdə adı hallanan erməni separatçılarının da Bakıda məhkəməsi gedir. Son 150 ilin görmədiyimiz möcüzələri baş verməkdədir.

Amma hələ qarşıda görüləsi işər çoxdur. Bütün bu zəfərlər, yeniliklər bizə Xocalı soyqırımını unutmağa övq edə bilməz. Beynəlxalq aləm bu soyqırıma ədalətli qiymət verənə qədər Azərbaycan xlqı və dövləti

çalışmalarını davam etdirməlidir. Yəqin ki, bilirsiniz ki, 2012-ci idən üzü bəri faciəmizi tam səviyyədə qətliam kimi Türkiyə , Pakistan və İslam Əməkdaşlıq Təşkilatı , parlament səviyyəsində isə Meksika, Kolumbiya, Çexiya, Bosniya və Hersəqovina, Peru, Honduras, İordaniya, Cibuti tanıyıb.

ABŞ-nin 21 ştatı da faciəmizi qətliam kimi tanıyıb. İşğalçı Ermənistanin tərəfindən çıxış edən bir dünyada bu əlbəttə ki, bir türk, bir müsəlman dövləti üçün böyük nailiyyətdir. Xocalı soyqırımını dünyaya tanıtmaq ağır gedən bir prosessdir. Amma mütləq bir gün ədalət qalib gələcəyinə olan inamımızı da əldən verməməliyik, bir gün Xocalı soyqırımının səbəbkarlarının ədalət məhkəməsinin qarşısında cavab verəcəyinə ümidimizi itirməməliyik! Bu qənaətə gəlməyimə bu gün oxuduğum bir xəbər də səbəb oldu. İraq parlamentinin deputatı Ərşad Rəşad Salehi Bakıda keçirilən "Türkman irsi: vətəndaş cəmiyyətlərinin həmrəyliyi" adlı Forumda çıxış edərəkən fikirləri ilə diqqətimizi çəkdi.(APA) O bildirdi ki, Xocalı soyqırımının İraq parlamentində tanınmasına çalışırıq.

Bəli, bu tip çıxışı biz qardaş Qazaxıstandan, Özbəkistandan, Türkmənistandan və bir sıra qardaş dediyimiz, dost bildiyimiz ölkələrdən gözləyirik. Çünki bu soyqırım beynəlxalq ictimaiyyətin gözləri qarşısında baş verib. Saxta erməni soyqırımı kimi yalan və iftiralardan , nağıl və əfsanələrdən ibarət deyil.

Mübarizə davam edir!

Əntiqə Rəşid